# Turan sevdalı Xanəli Kərimliyə

**Əzizim Xanəli Kərimli, sənin "Turan qalxır ayağa" lirik poemanı sosial şəbəkədə oxudum. Hətta bir qədər inciklik hissi də keçirdim. Niyə bu əsəri birinci olaraq bizə - "Kredo"muza göndərmədiyin üçün.**

Ancaq necə deyərlər, tüstü düz çıxırsa, gileyə yer yox. Bütün hallarda sənin ruhi-mənəvi təbiətinlə bağlı olaraq yazdığın əsər Azərbaycan ünvanına yönəlikdir. Açığı, əsəri oxuyub başa çıxana qədər bir nigaranlıq hissi məni tərk etmirdi. Dövrümüzün nəbz ahəngi kimi döyünən Turan duyğusunu sən necə yazmısan? İstəyinə, əgər belə demək mümkünsə, istəyimizə nail olmusanmı?!

Sən əsərin janrını lirik-monoloq kimi göstərmisən. Ümumiyyətlə, hər hansı bir əsərin bədii məziyyətlərini, hətta mövzu əhatəsini şərh edərkən janr xüsusi bir amil kimi ortaya gəlir. Əvvəlcə, gərək janrı dəqiq müəyyənləşdirəsən. Lirik ovqatda verilmiş girişdən sonra Turan mənəvi mühiti bütün coğrafiyası və tarixi ilə "Turan qalxır ayağa" əsərində görünür. Əsərin girişində sən şairsən, əsas mətnə başlayanda isə ozansan, Dədə Qorqud ruhlu dastançısan, bəlkə də, Manasçısan. Kimsə bu əsərdə dəqiq ritm, ahəng axtarırsa, zənnimcə, səhv yolda olacaq. Çünki bu əsərin bütün mətni Dədə Qorqud, Manas ruhu ilə qələmə alınıb. Tarixi obrazlar bir-birini əvəz edir. Hətta Orxon-Yeniseydən belə yaddaşdan kükrəyib gələn yazılı mətnlərin sənin düşüncəndən keçən məğzi bu günün Turançısının məramını ifadə edir.

Zənnimcə, "Turan qalxır ayağa" ideyası belə bir həqiqəti diktə edir ki, sən özün də bunu sövq təbi ilə hiss edir və yazıya gətirirsən: "Dünyaya Turan gəlir".

Sözün, yaradıcılığın dəyəri o vaxt görünür, o vaxt üzə çıxı ki, oxuyanın, dinləyənin varlığına təsir göstərir. Nəbzinin ahəngini sözün ritminə uyğun kökləyir. Açığı Dədəd Qorqud, "Manas" ruhunda yazılmış bu əsəri yəqinki çoxları qavrayaraq. Ancaq bütün hallarda əsərin savaş ruhunu müəllifin tarixə, tarixi turana sevdasından gələn səsi hər bir diqqətli oxucu duya biləcək.

Əzizim Xanəli Kərimli, sən bu gün yaşının və yaradıcılığının elə bir çağındasan ki, nə yazsan, bədii-elmi dəyərdir, mənəvi sərvətdir. Sevinirəm ki, qələm əlindədir.

Uğuruna görə təbrik edirəm.

**Əli Rza Xələfli**

Kredo .- 2023.- 21 iyun.- S.7.